


# Şuşa: alınmaz qala, musiqi və sənət məbədi

*"Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər".*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti.*

**Ölkə başçısının 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir**




**Hüsnünə sığmayan gözəllikləri ilə adı dillərdə dolaşan, ecazkar təbiəti ilə şöhrəti aləmə yayılan Azərbaycanın baş tacı, Qarabağın döyünən ürəyi - qədim Şuşa. Dumanlı dağların qoynunda çağlayan İsa bulağı, igidlər oylağı Cıdır düzü ilə könülləri riqqətə gətirən vətənimin dilbər guşəsi. Qarabağın dağlıq hissəsində, sıx meşələrin, büllur kimi saf bulaqların əhatəsində, uca dağların zirvəsində yerləşən Qala şəhərim.**

Milli-mənəvi dəyərlərimizi, musiqi ənənələrimizi özündə yaşadan, Azərbaycanın mədəniyyət mərkəzi sayılan Şuşa xalqımızın həyatında hər zaman özünəməxsus rol oynamışdır. Şuşa qalası mühüm iqtisadi, siyasi və mədəni əhəmiyyətə malik şəhər kimi təşəkkül tapanadək tarixin sərt sınaqlarından çıxmış, dəfələrlə xarici hücumlara, müdaxilələrə məruz qalmışdır. Lakin bu qədim qala şəhəri heç bir vaxt Azərbaycan ruhunu itirməmişdir. Milli memarlıq üslubu ilə seçilən, orta əsr şəhərsalma sənətinin qiymətli abidəsi adlandırılan, üç əsrə yaxın yaşı olan Şuşa tarixi boyu zəngin inkişaf yolu keçmiş, yetirdiyi görkəmli şəxsiyyətlərlə xalqımızın ədəbi, mədəni, ictimai-siyasi mühitinin formalaşmasında, zənginləşməsində əvəzsiz rol oynamışdır. Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firidun bəy Köçərli, Əhməd bəy Ağaoğlu kimi şəxsiyyətlər Şuşada yetişmiş, yaradıcılıqları ilə Azərbaycanın mədəniyyət salnaməsinə şanlı səhifələr yazmış, əvəzolunmaz ədəbiyyat və incəsənət nümunələri yaratmışlar.

Havasında, suyunda musiqi duyulan, şair, musiqiçi, memar, rəssam və ədiblər məskəni olan qədim Şuşa Qafqazın sənət məbədi adlanır. Saysız-hesabsız memarlıq inciləri, ədəbiyyat və incəsənət nümunələri ilə Azərbaycan muğamının beşiyi hesab olunan Şuşa təkcə ölkəmizdə deyil, bütün dünyada qədim mədəniyyət mərkəzlərindən biri kimi tanınır. "Şərqin konservatoriyası" adlanan bu şəhər Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Üzeyir Hacıbəyov, Bülbül, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov, Niyazi, Fikrət Əmirov, Süleyman Ələsgərov kimi incəsənət xadimlərinin vətənidir.

2020-ci il noyabrın 8-də müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilən Azərbaycanın muğam beşiyi, milli musiqimizin, poeziyamızın qədim abidəsi sayılan Şuşa bu gün bütün dünyanı heyrətə gətirəcək, aləmi heyran qoyacaq dərəcədə yenidən yaradılır. 2021-ci il 14 yanvar tarixindən - Prezidentin səfərindən sonra Şuşanın bərpası başlandı və qısa müddət ərzində böyük işlər görüldü. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya Füzulidən yüksəkgərginlikli xətlər çəkildi, yarımstansiya tikildi, su xətləri yeniləndi. Şuşanın tarixi abidələrinin restavrasiyasına başlandı. Molla Pənah Vaqifin büstü və muzey-məqbərə kompleksi ilkin görkəminə qaytarıldı, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları oldu, Natəvan bulağı bərpa edildi. Prezident İlham Əliyevin göstərişi ilə ermənilər tərəfindən gülləbaran edilmiş dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri mərkəzi meydanda qoyuldu. Üç məsciddə Heydər Əliyev Fondu tərəfindən təmir-bərpa işlərinə başlandı. "Qarabağ" və "Xarıbülbül" otelləri istifadəyə verildi. Şuşanın Baş planı təsdiq edildi, yeni yaşayış kompleksinin təməli qoyuldu. Bu gün həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdətində qurulur və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək.

Üç əsrlik yaşı olan Azərbaycanın alınmaz qalası, mədəniyyət məbədi olan bu qədim şəhər əvəzsiz sənət nümunəsi olan Xan, Qaxal mağaraları, Xurşidbanu Natəvanın, artilleriya generalı Mehmandarovun, şair-rəssam Mir Möhsün Nəvvabın ev-muzeyləri, İbrahim xanın və onun qızı Qara Böyükxanımın qəsrləri, Gövhər Ağa məscidi, əsas ticarət mərkəzi olan "Rastabazar", Daşaltı dərəsi, Cıdır düzü, möhtəşəm qala divarları və digər memarlıq inciləri ilə əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə yadigar qalmışdır.

Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olan Şuşanın tarixi görkəminin, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə ölkə başçımızın 2021-ci il 7 may tarixli Sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan etməsi tarixən xalqımızın mədəniyyətinin, incəsənətinin formalaşmasında, inkişaf etməsində Şuşa qədər ikinci şəhərin olmadığını bir daha sübut edir. Bu sərəncamla 2021-ci il mayın 12-si və 13-də Şuşada Heydər Əliyev Fondunun təşkilatçılığı ilə "Xarıbülbül" festivalı düzənləndi.

29 ildən sonra artıq hər il bu festival Şuşada keçirilir. Bu sərəncamla dövrünün böyük şairi, mütəfəkkiri və dövlət xadimi, yaradıcılığında özünəməxsus realist ədəbi-estetik mövqeyi ilə seçilən Molla Pənah Vaqif irsinə işıq salan Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə yenidən təşkil olundu. Türkiyə-Azərbaycan birliyini əbədiləşdirən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi", Beynəlxalq Kulinariya Festivalı, Dünya Azərbaycanlılarının V Qurultayı, Bülbülün anadan olmasının 125 illiyinə həsr olunan Vokalçıların Bülbül adına VIII Beynəlxalq Müsabiqəsi, "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans, "Mediada qlobal trendlər və yeni çağırışlar" mövzusunda beynəlxalq media forumu və s. zəngin və şanlı keçmişə malik, Azərbaycan xalqının qədim ənənələrini özündə yaşadan Şuşanın tarixini daha da zənginləşdirdi.

Şuşanın tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması barədə ölkə başçımız demişdir: "... Şuşanın mədəni həyatı zəngin olmalıdır. Şuşanın bərpası ilə əlaqədar işlərə artıq start verildi. Mənim göstərişimlə böyük heyət oraya ezam edildi. Deməli, yaşayış fondunun, tarixi abidələrin təftişi aparılmalı, vurulmuş ziyan dəqiq hesablanmalıdır və biz Şuşa şəhərinin restavrasiyasına başlamalıyıq. Ancaq yenə də vaxt itirmədən, ancaq eyni zamanda, tələsmədən Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir".

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

